# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



**"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir**

**YAP Sədrinin müavini ilə Ulusal Birlik Partiyasının Sədri arasında görüş keçirilib**



3

## "Yaxşı günlərdə, çətin günlərdə bir-birimizin yanındayıq!"



2

*Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının görüşünün iştirakçılarını qəbul edib*


SƏS

№ 026 (7436)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

3 aprel 2026-cı il.
Qiymәti 1 manat


# Rusiya-Qərb qarşıdurma meydanı – Ermənistan



5

**"2016-cı ildə aprel döyüşlərində düşmənə dərs verdik"**




4

**Paşinyandan Putinə "tərs şillə"...**



4

**Təxribat planı necə ifşa olundu?**



6

**Sağlamlıq ön planda: elektron siqaretlər niyə qadağan edildi?**



7

**3 uşaqlı ailələrə uşaqpulu veriləcək?**



5

# “Yaxşı günlərdə, çətin günlərdə bir-birimizin yanındayıq!”

## *Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının görüşünün iştirakçılarını qəbul edib*



***Azərbaycan Prezidenti İlham Əliyev aprelin 2-də Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmazı, Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripovu, Qazaxıstan Respublikasının Baş naziri Oljas Bektenovu, Qırğız Respublikasının Nazirlər Kabinetinin Sədri Adılbek Kasımaliyevi, Türkmənistan Nazirlər Kabineti Sədrinin müavini Nökərqulu Ataqulıyevi, Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri Ünal Üsteli və Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul edib.***



Dövlətimizin başçısı görüşdə çıxış edib. Prezident İlham Əliyev öz çıxışında əmin olduğunu bildirib ki, bu görüşün çox böyük faydası olacaq. “Hər zaman olduğu kimi, bizim ölkələrimiz birlik, həmrəylik göstərəcəklər. Eyni zamanda, qarşımızda duran önəmli iqtisadi məsələlərin müzakirəsi üçün də bu görüşün çox böyük əhəmiyyəti var.

Bütövlükdə Azərbaycan Türk Dövlətləri Təşkilatının inkişafına əvvəllər və bu gün böyük töhfə verir və verəcək. Bu, bizim xarici siyasətimizdə prioritet məsələlərdən biridir. Dəfələrlə müxtəlif kürsülərdən bəyan etmişdik ki, Türk dünyası bizim ailəmizdir, bizim başqa ailəmiz yoxdur. Bu ailəni gələcəyə aparmaq üçün birgə səylərin göstərilməsi təbii ki, çox önəmlidir.”

Dövlətimizin başçısı qeyd edib ki, xarici siyasətimizdə Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə bizim əlaqələrimiz prioritet təşkil edir. Bu ölkələrlə bizim tarixi, mədəni, etnik köklərimiz gözəl təməl formalaşdırır və bu gün müstəqil dövlətlər kimi biz bütün beynəlxalq təşkilatlarda da vahid mövqedən çıxış edirik, bir-birimizi dəstəkləyirik. Yaxşı günlərdə, çətin günlərdə bir-birimizin yanındayıq.

“Təbii ki, təşkilatımızın gələcək inkişafı ilə bağlı növbəti addımlar atılacaq. Bu gün Türk Dövlətləri Təşkilatı dünya miqyasında böyük nüfuz qazanmışdır və bizim beynəlxalq mövqelərimiz möhkəmlənir. Həm bölgədə gedən proseslərə bizim təsir imkanlarımız artır, eyni zamanda, qlobal müstəvidə də təşkilatımızın rolu artmaqdadır və biz müştərək səylərlə mövqelərimizi möhkəmləndirməliyik. Bu gün bizim təşkilatımız dünyanın aparıcı beynəlxalq təşkilatlarının sırasına daxil edilməlidir. Bu, bizdən asılıdır. Biz nə qədər səylər göstərsək, birlik göstərsək, önəmli layihələrin icrasına nail olsaq və eyni zamanda, tərəfdaşlarımız üçün də önəmli imkanlar yaratsaq, bizim beynəlxalq nüfuzumuz da, mövqelərimiz də, imkanlarımız da bir o qədər artacaq.

Dünyada bir çox beynəlxalq təşkilatlar var, ancaq etnik köklər üzərində yaranmış təşkilatların sayı o qədər də çox deyil. Yəni bu, bizim çox böyük üstünlüyümüzdür. Yəni bizi birləşdirən bizim etnik mənsubiyyətimizdir. Bu, birinci amildir. Ondan sonra bizim coğrafiyamızdır, ölkələr arasındakı çox xoş və isti münasibətlərdir, vahid məqsədlərdir. Ona görə bax, bütün bu amilləri nəzərə alaraq biz təşkilatımızı daha da yüksək pilləyə qaldırmalıyıq. Təşkilatımızın inkişafı üçün əlbəttə ki, Zirvə görüşlərinin böyük əhəmiyyəti var. Bu görüşlər müntəzəm olaraq keçirilir və bildiyiniz kimi, Azərbaycanın təşəbbüsü ilə dövlət başçılarının qeyri-rəsmi görüşləri də keçirilməyə başlamışdır. Birinci belə qeyri-rəsmi Zirvə Görüşü Qarabağda, Şuşada keçirilmişdir. Artıq bu, ənənə halına çevrilib və hesab edirəm ki, bu da çox gözəl göstəricidir. Dövlət başçıları artıq ildə ən azı iki dəfə görüşürlər. Çünki həm müzakirə edilməli məsələlər çoxdur, həm dünyada proseslər o qədər sürətlə gedir ki, daim biz məsləhətləşmələr aparmalı, bir-birimizin fikirlərini öyrənməli və düzgün qərarların qəbul edilməsi üçün ortaq addımlar atmalıyıq.

İqtisadi sahədə, - sizin də görüşünüzün əsas məzmunu bu olacaq, - işlər yaxşı gedir. Azərbaycana gəldikdə, bütün üzv ölkələrlə bizim ticarət dövriyyəmiz artır, qarşılıqlı sərmayə qoyuluşunun həcmi artır. Biz təşkilata üzv ölkələrin iqtisadiyyatlarına 20 milyard dollardan çox sərmayə qoymuşuq. Düzdür, bunun əsas hissəsi Türkiyəyə qoyulan sərmayədir. Ancaq digər üzv ölkələrlə də qarşılıqlı sərmayə qoyuluşu prosesi gedir. Bizim Özbəkistanla, Qazaxıstanla, Qırğızıstanla birgə investisiya fondları yaradılmışdır. Bu fondlar vasitəsilə artıq bir çox layihələr icra edilir, yaxud da ki, onların icrası üçün hazırlıq işləri aparılır.

Xüsusi minnətdarlığı Qarabağın bərpasına qardaş ölkələrin dəstəyinə görə ifadə etmək istərdim. Həm bərpa işlərinə, həm Qarabağda yeni müəssisələrin yaradılması işinə verdiyiniz dəstək bizim üçün çox önəmlidir. Bildiyiniz kimi, artıq Özbəkistan tərəfindən bizə hədiyyə edilmiş Mirzə Uluqbəy məktəbi fəaliyyət göstərir. Qazaxıstanın hədiyyəsi olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi fəaliyyət göstərir. Qırğızıstanın hədiyyəsi olan Manas məktəbi fəaliyyət göstərir. Bunlar Füzuli, Ağdam rayonlarındadır. Türkiyədən olan bir çox şirkətlər önəmli infrastruktur layihələrində - yollar, körpülər, tunellər, dəmir yolları layihələrində iştirak edirlər. Eyni zamanda, Qarabağda iş yerlərinin yaradılması da bizim üçün çox önəmlidir və yenə də burada birinci xarici sərmayə qardaş ölkələrdən gəlib. Xankəndidə Özbəkistanın dəstəyi ilə böyük tikiş fabriki fəaliyyətə başlamışdır və hörmətli Prezident Şavkat Miromonoviç Mirziyoyevlə birlikdə biz o fabrikin açılışını qeyd etmişdik. Yəni bütün bunlar bir daha göstərir ki, bu gün bizim üçün əsas olan məsələdə, yəni Qarabağın və Şərqi Zəngəzurun bərpasında yenə də bizim yanımızda qardaş ölkələrdir. Biz də öz növbəmizdə hər zaman lazım olan dəstəyi göstərməyə hazırıq və bunu edirik. Türkiyədə yaşanan o dəhşətli zəlzələdən sonra Azərbaycan öz qardaşlıq dəstəyini göstərmişdir və Azərbaycanın maliyyə imkanları hesabına Kahramanmaraşda 100 milyon Amerika dolları dəyərində “Azərbaycan məhəlləsi” tikilib. Hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanla birlikdə biz bu “Azərbaycan məhəlləsi”nin açılışını da qeyd etmişdik. Yəni bu, bir daha göstərir ki, bizim ölkələrimizin və təşkilatımızın məramı sülhə, əməkdaşlığa, əmin-amanlığa, qarşılıqlı hörmətə və qarşılıqlı maraqlara yönəlibdir”.

Görüşdə çıxış edən Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmaz, Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov, Qazaxıstan Respublikasının Baş naziri Oljas Bektenov, Qırğız Respublikasının Nazirlər Kabinetinin Sədri Adılbek Kasımaliyev, Türkmənistan Nazirlər Kabineti Sədrinin müavini Nökərqulu Ataqulıyev, Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri Ünal Üstel, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev və Azərbaycan Respublikasının Baş nazir Əli Əsədov göstərilən diqqət üçün Azərbaycan Prezidentinə təşəkkür ediblər. Qeyd edilib ki, TDT gündən-günə inkişaf edir və güclənir.

Görüşün yekununda Prezident İlham Əliyev çıxış edib: “Bu gün burada səslənən fikirlər bir daha onu göstərir ki, təşkilatımızın çox gözəl gələcəyi var. Çünki hər bir üzv ölkə və müşahidəçi ölkə təşkilatımızın güclənməsini istəyir. İstəyir ki, təşkilatımız dünya arenasında daha önəmli rol oynasın və əminəm ki, biz buna nail olacağıq.

Bir məsələni də qeyd etmək istərdim. Bizim təşkilatımızın nadirliyi haqqında mən artıq giriş sözümdə fikirlərimi bildirdim. Bir məsələyə də toxunmaq istərdim, o da çox önəmlidir. Çünki təşkilata üzv ölkələr arasında ikitərəfli formatda da münasibətlər çox yaxşıdır. Heç bir problem yoxdur, heç bir anlaşılmazlıq yoxdur və bu da deyə bilərəm ki, dünya təşkilatları arasında nadir bir hadisədir. Çünki biz bilirik dünyada hansı beynəlxalq təşkilatlar var və o təşkilatlar çərçivəsində bəzən bəzi üzv ölkələr arasında da ixtilaflar var, qarşıdurmalar var, hətta münaqişələr də var. Amma bizim nadirliyimiz, - bu, bizim çox böyük ümumi müştərək dəyərimizdir, - odur ki, həm çoxtərəfli, həm ikitərəfli formatda ancaq xoş münasibət, xoş niyyət, bir-birimizə olan dəstək və bir-birimizə olan hörmət və ehtiramdır. Bu, çox böyük dəyərdir. Biz bunu həm qorumalıyıq, həm gələcək nəsilləri bu ruhda tərbiyə etməliyik və təşkilatımızı bütün istiqamətlər üzrə elə gücləndirməliyik ki, illər keçdikcə təşkilatımız dünya miqyasında qlobal aktora çevrilsin. Yenə də deyirəm, buna nail olmaq üçün bütün imkanlar var. Birincisi, bizim birliyimiz, ortaq etnik köklərimiz, böyük coğrafiyamız, enerji resurslarımız, nəqliyyat yollarımızdır. Bu gün nəqliyyat deyiləndə bizim coğrafiyamızdan, yəni bizdən yan keçmək mümkün deyil. Biz investisiya qoymaqla, hər bir ölkə öz ərazisində sərmayə qoymaqla bu coğrafiyanı daha da önəmli bir amilə çeviririk. Əminəm ki, bu gün müzakirə olunan və sizin toplantınızda müzakirə ediləcək məsələlər təşkilatımızın gücünü daha da artıracaq.”

# Qardaşlığımız və müttəfiqliyimiz uğurla inkişaf edir





*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmazın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Cevdet Yılmaz Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.*

## Prezident İlham Əliyev Türkiyənin Vitse-prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi. Cevdet Yılmaz Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu deyərək, məhz bunun Şuşa Bəyannaməsinin əsas prinsiplərindən biri olduğunu vurğuladı. Prezident İlham Əliyev də öz növbəsində ölkəmizin hər zaman Türkiyənin yanında olduğunu dedi.

Görüşdə Azərbaycanla Türkiyə arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı, müxtəlif səviyyələrdə həyata keçirilən qarşılıqlı səfərlərin münasibətlərimizin daha da genişlənməsi işinə töhfə verdiyi bildirildi.

Söhbət zamanı Bakıda Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin görüşünün keçirilməsinin əhəmiyyətinə toxunuldu, bu tədbirin təşkilat çərçivəsində əməkdaşlığın gücləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığı vurğulandı. Cevdet Yılmaz bu toplantıda Şimali Kipr Türk Cümhuriyyətinin Baş nazirinin iştirakını da məmnunluqla qeyd edərək, buna görə Azərbaycan tərəfinə təşəkkürünü bildirdi.

Ötən il Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşünün yüksək səviyyədə keçirildiyini və həmin tədbirdə yaxşı nəticələrin əldə edildiyini deyən qonaq Azərbaycanın Türk Dövlətləri Təşkilatına sədrliyinin uğurlu olduğunu vurğuladı. Görüş zamanı, həmçinin Azərbaycanla Türkiyə arasında ikitərəfli əməkdaşlığın perspektivləri, regional vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.

# YAP Sədrinin müavini ilə Ulusal Birlik Partiyasının Sədri arasında görüş keçirilib







***Aprelin 1-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin Hökumət başçılarının görüşündə iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) Baş naziri, Ulusal Birlik Partiyasının (UBP) Sədri Ünal Üstelin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.***





Görüşdə xalqlarımız arasında əlaqələrin tarixi ənənələrə, ortaq dəyərlərə, dostluq və qardaşlıq prinsiplərinə əsaslandığı qeyd olunaraq son illərdə Azərbaycan Respublikası ilə Şimali Kipr Türk Cümhuriyyəti arasında sıx təmasların və milli maraqlara əsaslanan qarşılıqlı fəaliyyətin gücləndirilməsinin əhəmiyyəti vurğulanıb. Fəal siyasi dialoq şəraitində iqtisadi, ticari, təhsil, turizm, mədəni, humanitar və digər sahələrdə çoxşaxəli əməkdaşlıq üçün geniş potensialın mövcud olduğu bildirilib.

ŞKTC-nin Türk Dövlətləri Təşkilatına müşahidəçi üzv statusunda qəbul olunmasında Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin müstəsna rolunun Şimali Kipr Türk xalqı tərəfindən yüksək qiymətləndirildiyi qeyd olunub. Türk dünyasında işbirliyinin dərinləşdirilməsinin böyük önəm daşıdığı bildirilərək Türk Dövlətləri Təşkilatının mürəkkəb qlobal problemlərlə xarakterizə edilən müasir beynəlxalq münasibətlər sistemində mövqeyinin möhkəmləndirilməsinin mühüm strateji prioritet olduğu nəzərə çatdırılıb.

Görüş zamanı Türk dövlətlərinin hakim siyasi partiyaları arasında münasibətlərin genişləndirilməsinin də diqqət mərkəzində olduğu qeyd edilərək YAP-UBP əlaqələrinin mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. 2023-cü ilin noyabrın 14-də Yeni Azərbaycan Partiyası, Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası və Ulusal Birlik Partiyası arasında imzalanmış üçtərəfli Anlaşma Memorandumundan irəli gələn vəzifələrin indiyədək uğurla icra olunduğu bildirilərək müxtəlif sahələrdə, o cümlədən gənclər arasında təmasların sıxlaşdırılmasının vacibliyi vurğulanıb. 2022-ci ildən başlayaraq hər il iyunun 15-də YAP-ın təşkilatçılığı ilə Şuşa şəhərində keçirilən beynəlxalq konfransın dost və tərəfdaş ölkələrin siyasi partiyaları arasında münasibətlərin inkişafı xüsusunda önəmi qeyd olunub. Qarşılıqlı səfərlər çərçivəsində faydalı fikir və təcrübə mübadiləsinin önəmi diqqətə çatdırılaraq ortaq hədəflərin gerçəkləşdirilməsi istiqamətində bundan sonra da məqsədyönlü birgə fəaliyyətin davam etdiriləcəyinə əminlik ifadə olunub.

Görüşdə qarşılıqlı maraq doğuran digər bir sıra məsələlərə dair fikir mübadiləsi aparılıb. Regional və beynəlxalq təhlükəsizliyə təhdid yaradan hallara qarşı sistemli mübarizənin önəmi vurğulanaraq bütün məsələlərin ölkələrin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə hörmət olunmaqla beynəlxalq hüquq normaları əsasında və sülh şəraitində həllinin zəruriliyi qeyd edilib.

# "2016-cı ildə aprel döyüşlərində düşmənə dərs verdik"




TƏHLİL

2016-cı il aprelin 1-dən 2-nə keçən gecə. Həmin zamandan 10 il ötür. Bu, aprel döyüşləri kimi tarixiləşdi. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin Qondarma Dağlıq Qarabağ Respublikasının hərbi birləşmələri arasında baş vermiş hərbi münaqişə Aprel döyüşləri Qarabağda 1994-cü ildə atəşkəs haqqında saziş imzalandıqdan sonra ən şiddətli döyüşlər idi. Döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələndi, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində yollar düşməndən azad olundu. 5 apreldə hər iki tərəfin razılığı və beynəlxalq qurumların müşahidəsi ilə yenidən atəşkəs müqaviləsi imzalandı. Buna baxmayaraq, Ermənistan tərəfindən dəstəklənən seperatçı qüvvələr atəşkəs imzalanmazdan bir neçə saat sonra onu dəfələrlə pozmuşdur. Azərbaycan Respublikasının verdiyi rəsmi məlumata görə Azərbaycan Silahlı Qüvvələri 2,000 hektarlıq ərazini azad etmişdir. Aprelin 4-ü Ermənistan ordusu itirilmiş mövqelərini geri qaytarmaq məqsədilə cəbhənin əsasən Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində mövqelərimizə yenidən hücum etdi, təmas xəttinə yaxın yaşayış məntəqələrimizi intensiv atəşə tutdu. Amma döyüşçülərimizin şücaəti qarşısında düşmən məqsədinə nail ola bilmədi. Onların əlavə qüvvələr göndərməklə hücumu davam etdirmək planı da baş tutmadı. Əməliyyat zamanı Ermənistan silahlı qüvvələrinin Ağdərə və digər yaşayış məntəqələrindən hərəkətə gətirmək istədiyi ehtiyat qüvvələri bölmələrimiz tərəfindən önləyici zərbələrlə dağıdıldı.

Azərbaycan ordusu hələ Aprel döyüşlərində öz gücünü düşmənə göstərə bilmişdir. 2016-cı il aprelin əvvəllərində Azərbaycanın ön xətt mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə məruz qalanda ordumuzun bölmələri əks-həmlə ilə təxribatların qarşısını aldı.

Hadisələrin gedişinə nəzər salsaq görərik ki, 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə və gün ərzində bütün cəbhə boyu Azərbaycan mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən güclü artilleriya atəşinə məruz qalıb. Bunun nəticəsində dinc sakinlərdən 2-si ölüb, 10 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Cəbhənin ən gərgin Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətində yerləşən birliklər, artilleriya bölmələri və digər qoşun növlərinin birgə, əlaqəli fəaliyyəti nəticəsində qısa müddətdə Ermənistan silahlı bölmələrinə qarşı cavab tədbirləri həyata keçirib. Ermənistan silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 82 və 120 millimetrlik minaatanlardan və iriçaplı pulemyotlardan istifadə etməklə sutka ərzində atəşkəsi 127 dəfə pozub. Ermənistanın İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndi atəşə tutulub. Habelə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndi, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən isə Gədəbəy rayonu ərazisindəki yüksəkliklər vurulub. Talış kəndində olmuş "Kommersant" qəzetinin müxbirinin sözlərinə görə, Azərbaycan hərbçilərinin qrupu Talışa girsə də, orada möhkəmlənə bilmədilər. Azərbaycan Ordusunun şanlı tarixində mühüm yerlərdən birini tutan 2016-cı ilin Aprel döyüşləri artıq düşmənə Azərbaycanın gücünü göstərmişdir.

### APREL DÖYÜŞLƏRİ - AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİNİN QƏLƏBƏSİ

Aprel döyüşləri Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnmiş, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madaqiz kəndi istiqamətində yollar düşməndən azad olunmuşdur. Aprel döyüşləri zamanı 2 min hektar ərazi işğaldan azad edilib. Aprel döyüşlərində Ermənistana məxsus 30-dək tank, 320 döyüşçü məhv edilmiş və 500-dən artıq döyüşçüsü yaralanıb.

Bu müddət ərzində Ermənistan tərəfi Ermənistan və Azərbaycan silahlı qüvvələrinin təmas xətti boyunca sıx məskunlaşmış ərazilərdə yaşayan, aralarında qadınlar, uşaqlar və ahılların da olduğu qeyri-döyüşçü mülki əhaliyə qarşı qəsdən, sistematik və hədəflənən hücumlar edib. 32 yaşayış məntəqəsinin bombalanması nəticəsində aralarında 16 yaşdan kiçik 2 uşaq olmaqla 6 mülki şəxs həlak olub, 26 şəxs ağır yaralanıb. Hücumlar nəticəsində həmçinin çoxsaylı ictimai və şəxsi mülkiyyətə, o cümlədən mülki infrastrukturlara ciddi ziyan dəyib. 232 fərdi yaşayış evi, 99 elektrik dirəyi, 3 elektrik yarımstansiyası, kilometrlərlə su və qaz boruları dağıdılıb. Məktəblər, xəstəxanalar və ibadət yerləri də daxil olmaqla sosial müəssisələrə Ermənistan silahlı qüvvələri tərəfindən idarə olunan raket zərbələri endirilib. 1 məscid ibadət zamanı yüksək kalibrli artilleriya mərmiləri ilə vurulub. 2016-cı il aprelin 19-da Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərəncamları ilə Azərbaycan Silahlı Qüvvələrinin 3 üzvü "Azərbaycanın Milli Qəhrəmanı", 7 üzvü "Azərbaycan Bayrağı" ordeni, 1 üzvü 2-ci dərəcəli və 4 üzvü 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 19 üzvü "Vətən uğrunda" medalı, 43 üzvü "İgidliyə görə" medalı, 45 üzvü "Hərbi xidmətlərə görə" medalı, 2 üzvü "general-mayor" ali hərbi rütbəsi ilə mükafatlandırılıb.

### "QİSAS" CAVAB ƏMƏLİYYATI

Yaxın keçmişimizdə aldığı zərbələri yaddan çıxarmışdılar. Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri 10 noyabr 2020-ci il tarixli Bəyanatının müddəalarını kobud surətdə pozaraq 2022-ci ilin avqustun 3-də Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli törətdilər. Bundan əlavə, qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsiləsində yerləşən Qırxqız yüksəkliyini ələ keçirmək və orada yeni döyüş mövqelərini qurmağa cəhd göstərdilər. Azərbaycan Ordusu bölmələrinin keçirdiyi "Qisas" cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəklikləri nəzarətə götürdü. Əməliyyat çərçivəsində qeyri-qanuni erməni silahlı ünsürlərinin bir neçə döyüş mövqeyi dağıdıldı.

Azərbaycan Ordusunun Qarabağda başlatdığı lokal xarakterli antiterror tədbirlərinin qısa müddətdə öz müsbət nəticəsini verməsi, separatçıların təslim olması əlbəttə ki, ölkəmizin növbəti uğurudur. Azərbaycanın apardığı antiterror tədbirləri lokal xarakterli idi və Ordumuzun qarşısına mülki obyektlərə, insanlara zərər yetirilməməsi vəzifəsi qoyulmuşdu. Qarabağın relyefi dağlıq olduğundan və qeyri-qanuni erməni silahlıları uzun müddət yüksəkliklərdə möhkəmləndiyindən antiterror tədbirlərinin aparılması heç də asan məsələ deyildi. Ordumuz verilən tapşırığa əsasən ancaq legitim hərbi hədəfləri zərərsizləşdirdi və bu, humanistliyə görə dünyada aparılan ən nümunəvi antiterror tədbiri olaraq tarixə düşdü.

### "BİZ ELƏ ORDU YARATMIŞIQ Kİ..."

2023-cü ilin sentyabrın 19-da başlayan və təqribən 24 saat davam edən lokal antiterror tədbirləri Azərbaycan tarixinin şanlı səhifələrindəndir. Vətən müharibəsindəki tarixi Qələbəmizdən və Ermənistanın kapitulyasiyasından sonra Azərbaycan dövləti humanizm göstərərək ölkəmizin erməni əhalisi ilə reinteqrasiya prosesinə start verdi. Vətən müharibəsində qəhrəmanlıq göstərən Azərbaycan Ordusu bu dəfə də yüksək peşəkarlıq nümayiş etdirərək Ali Baş Komandanın onların qarşısında qoyduğu tapşırığı cəmi 24 saatda yerinə yetirdi. Nəticə olaraq separatçılar ağ bayraq qaldırdı və dövlətimiz qarşısına qoyduğu bütün hədəflərə çatdı. "Bu gün Silahlı Qüvvələrimizin gələcək inkişafı ilə bağlı lazımi addımlar atılır, lazımi silah-sursat, texnika alınır, yeni silahlı birləşmələr yaradılır. Xüsusi Təyinatlı Qüvvələrin sayı bir neçə dəfə artırılıb, yeni yaradılmış "Komando" silahlı birləşmələrində hərbçilərin sayı minlərlə ölçülür və bu proses davam edir. Biz elə Ordu yaratmışıq ki, - bundan sonra da bu işlər davam edəcək, - heç kim bizə sataşa bilməz və gələcəkdə də belə bir fikirdə ola bilməz". – deyə Prezident bildirib.

Bu gün Azərbaycan Silahlı Qüvvələrinin quruculuğu prosesi Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir və ordumuz inkişaf, təkmilləşmə dövrünü yaşayır. Azərbaycan Ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir bir ordudur. Azərbaycan Silahlı Qüvvələri bu gün müasir texnika ilə təchiz edilib, Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam - intizama malik bir quruma çevrilib. İkinci Qarabağ müharibəsinin nəticəsi Qafqazın yeni geosiyasi vəziyyətinin formalaşmasında mühüm mərhələ oldu. İndi bütövlükdə bölgədə sülh və inkişaf üçün gözəl şərait yaranıb. Bu gün hər bir azərbaycanlı Lələtəpədə ucaldılan üçrəngli bayrağımızın artıq işğaldan azad edilən Şuşada və digər ərazilərimizdə dalğalanmasından qürur duyurlar. Bu qüruru bizə yaşadan Müzəffər Ali Baş Komandan və Rəşadətli Azərbaycan Ordusudur.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Paşinyandan Putinə "tərs şillə"...

***"Hazırda iyunda keçiriləcək parlament seçkilərinə hazırlaşan Ermənistan, getdikcə qaynar qazanı xatırladır. Qərblə Rusiyanın təsir dairəsi üçün əsas "döyüş meydanına" çevrilən İrəvanda tərəflər daha çox mövqe qazanmağa və rəqiblərini bəribaşdan sıradan çıxarmağa çalışırlar.***

Xüsusilə Moskva Nikol Paşinyan hakimiyyətinə son qoymaq və Ermənistanda ona itaət edən siyasi qüvvələri hakimiyyətə gətirmək üçün hərəkətə keçib. Kilsədə N.Paşinyana hazırlanan hücum, habelə Serj Sarkisyan və Robert Köçəryanın hissediləcək dərəcədə aktivləşərək, hazırkı hökumətdən narazı sosial elektoratı öz tərəflərinə çəkmək üçün addımlar atmaları dediklərimizi təsdiq edir. Belə görünür ki, Ermənistanda bütün tərəflər əsas seçki "döyüşünə" qızğın hazırlıq görürlər".

Bu fikirləri SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, N.Paşinyanın Moskvaya səfəri, Kremldə Vladimir Putinlə söz duelinə çıxması, xüsusilə KTMT barədə səsləndirdiyi fikirlər onu göstərir ki, hazırkı Ermənistan hakimiyyəti nə Rusiyaya, nə də onun İrəvandakı dostlarına hansısa güzəşt etməyəcək.

"Əlbəttə, N.Paşinyanın Moskva səfəri ilk əvvəl onu göstərir ki, Rusiyanı tamamilə dəftərdən silmək mümkün deyil. Xüsusilə iqtisadi və regional dəstək baxımından Rusiya Ermənistan üçün çox şeyi ifadə edir. Amma daha çox qərbpərəst mövqe tutan N.Paşinyan Kremldə V.Putinə "boz üzünü" göstərməklə ondan çəkinmədiyini, əlaqələrin bərpasina müsbət yanaşdığını, lakin S.Sarkisyan və R.Köçəryandan fərqli olaraq, Rusiya üçün müti hakimiyyət rolu oynamayacağını bəyan etdi. Üstəlik N.Paşinyan V.Putinlə üzbəüz görüşdə 2020-ci ildəki hadisələrlə bağlı Rusiyanın özünü fakt qarşısında qoydu ki, bu artıq hazırkı Ermənistan hakimiyyətinin Rusiya üçün böyük "başağrısı" olduğunu, Moskvanın isə iyun seçkilərində var gücü ilə İrəvanda siyasi vəziyyəti dəyişmək üçün çalışacağını fakt kimi ortaya qoydu. V.Putin bu istəyinə çatacaqmı? - əlbəttə hər şeyi zaman göstərəcək".



*Mətləb Salahov: "Paşinyan Moskvada göstərdi ki, hazırkı Ermənistan hakimiyyəti nə Putinə, nə də onun erməni dostlarına güzəştə getməyəcək"*

*Afət Tahirqızı*

# Rusiya-Qərb qarşıdurma meydanı – Ermənistan



*Ermənistanda qarşıdan gələn seçkilər ərəfəsində siyasi dinamika yenidən diqqət mərkəzinə çevrilib. Bu kontekstdə Baş nazir Nikol Paşinyanın Rusiyaya etdiyi səfər həm daxili, həm də xarici siyasi baxımdan mühüm əhəmiyyət daşıyır. Ermənistanda seçkilər yaxınlaşdıqca hakimiyyət və müxalifət arasında rəqabət daha da kəskinləşir. Paşinyan hökuməti son illərdə həm iqtisadi, həm də təhlükəsizlik sahəsində müxtəlif çağırışlarla üzləşib. Xüsusilə Cənubi Qafqaz regionunda dəyişən geosiyasi vəziyyət seçki kampaniyasının əsas mövzularından birinə çevrilib.*

Paşinyanın Moskvaya səfəri bir neçə əsas istiqaməti əhatə edir. Birincisi, təhlükəsizlik məsələləridir. Ermənistanın ənənəvi müttəfiqi olan Rusiya ilə hərbi əməkdaşlıq məsələləri müzakirə olunur. İkincisi, iqtisadi əlaqələrdir. Enerji, ticarət və investisiya sahəsində əməkdaşlığın genişləndirilməsi prioritet olaraq qalır. Üçüncüsü, regional sabitlikdir. KTMT çərçivəsində əməkdaşlıq və regiondakı münaqişələrə yanaşma əsas gündəm mövzularındandır.

Bu səfər Paşinyanın seçkiöncəsi imicinə birbaşa təsir göstərə bilər. Rusiyayla münasibətlərin səviyyəsi Ermənistan seçiciləri üçün həssas məsələdir. Bir tərəfdən, Moskva ilə sıx əlaqələr təhlükəsizlik təminatı kimi qəbul edilir, digər tərəfdən isə ölkənin suverenliyi və qərbyönümlü siyasət tərəfdarları arasında narahatlıq doğurur. Paşinyanın Rusiyaya səfəri yalnız daxili auditoriya üçün deyil, həm də beynəlxalq ictimaiyyət üçün siqnal xarakteri daşıyır. Avropa İttifaqı və digər Qərb aktorları Ermənistanın balanslı xarici siyasət yürütməsini diqqətlə izləyir. Ümumilikdə, Paşinyanın Rusiyaya səfəri Ermənistanın seçkiöncəsi siyasi strategiyasının mühüm elementlərindən biridir. Bu səfərin nəticələri həm ölkədaxili siyasi qüvvələr balansına, həm də Ermənistanın gələcək xarici siyasət kursuna təsir göstərə bilər.

### Paşinyanın Moskva səfəri

Aprel ayının ilk günündə Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan Kremldə görüşüblər. Nikol Paşinyanın səfərinin iki aydan bir az sonra keçiriləcək parlament seçkiləri ilə birbaşa əlaqəli olması ehtimalı azdır. Məsələn, o, 9 mayda Moskvada peyda ola bilər və bu, daha təravətli görünər. Digər tərəfdən, indi onun anti-Rusiya hissləri təssüratını aradan qaldırmadan (və Ermənistan, məsələn, KTMT-dən qaçılmaz şəkildə çıxırsa, onları necə aradan qaldırmaq olar?) yarışda səs itirməsi də qəribədir.

Rusiya prezidenti Vladimir Putin Ermənistanın baş naziri Nikol Paşinyanla görüşündə Ermənistandakı Rusiyapərəst siyasi qüvvələrin seçkilərdə iştirak edə biləcəyinə ümid etdiyini bildirib. ”Ermənistanda çoxlu dostumuz var, çox. Bunu bilirik. Rusiya Federasiyasında çoxlu sayda erməni yaşayır. Saylar müxtəlifdir. Təxminlərimizə görə, 2 milyondan çoxdur. Daxili İşlər Nazirliyinin statistikası bunu təsdiqləyir. Ermənistanda Rusiyapərəst bir çox siyasi qüvvə var”, - deyə Putin qeyd edib. ”Əlbəttə, sizə açıq deyim, həmişə dürüst və birbaşa danışdığımız bir dialoqumuz var. Biz çox istərdik ki, bütün bu siyasi partiyalar və siyasətçilər seçkilər zamanı bu daxili siyasi işlərdə iştirak edə bilsinlər", - deyə Rusiya lideri ümidini ifadə edib. Rusiya lideri qeyd edib ki, onların çoxunun Rusiya pasportu olmasına baxmayaraq həbsdədir. ”Bu sizin qərarınızdır, biz müdaxilə etmirik. Amma hər halda, biz onların hamısının bu daxili siyasi işlərdə iştirak edə bilməsini istərdik”, - deyə o əlavə edib.

“Daxili siyasi proseslərimizə gəldikdə isə, bilirsiniz ki, Ermənistan demokratik ölkədir və demək olar ki, həmişə siyasi proseslər olur və bu, bizim üçün adi bir şeyə çevrilib”. Ermənistanın Baş naziri Nikol Paşinyan bunu Rusiya Prezidenti Vladimir Putinlə görüşündə bildirib. ”Biz əslində ildə iki dəfə seçkilər keçiririk, bələdiyyə seçkiləri və onlar da çox siyasiləşdirilib, çünki siyasi islahatlarımıza əsasən, oradakı insanlar siyasi partiyalara və ya lehinə səs verirlər”, - deyə Paşinyan bildirib. Baş nazir qarşıdan gələn parlament seçkilərinə də toxunaraq, onların ölkənin siyasi sistemi üçün əsas əhəmiyyətini vurğulayıb. ”Qeyd etmək istərdim ki, məsələn, qarşıdan parlament seçkiləri gəlir - millət vəkilləri seçkiləri və bu seçkilərə əsasən, bu, əslində baş nazirin seçilməsidir”, - deyə Paşinyan qeyd edib. O, namizədlər üçün konstitusiya tələblərini xatırladıb: ”Diqqətinizi çəkmək istərdim ki, yalnız Ermənistan pasportuna malik vətəndaşlar bu seçkilərdə iştirak edə bilərlər. Yəni, bütün hörmətlə qeyd edək ki, Ermənistan Respublikası Konstitusiyasına görə, Rusiya pasportuna malik insanlar nə millət vəkili, nə də baş nazir vəzifəsinə namizəd ola bilməzlər, ona görə də burada heç bir məhdudiyyət yoxdur”.

İkitərəfli münasibətlərdən danışan Paşinyan vurğulayıb ki, son illərdə ciddi sınaqlardan keçiblər. “Mən 100 faiz əminəm ki, siz Rusiya Federasiyası ilə münasibətlərimizin və son bir neçə ildə şəxsi münasibətlərimizin bir çox sınaqlardan keçdiyini bilirsiniz”, - deyə o bildirib. Baş nazir dialoq atmosferinə görə Rusiya liderinə təşəkkürünü bildirib. “Və çox məmnunam və ilk növbədə yaratdığınız etimad atmosferinə görə sizə bir daha təşəkkür etmək istəyirəm. Çünki əgər siz bizim belə açıq, etibarlı münasibətlərimizin olmasını istəməsəydiniz, düşünürəm ki, əlbəttə ki, mən burada olmazdım və bunu edə bilməzdim və sizə bir daha təşəkkür etmək istəyirəm”, - deyə Paşinyan bildirib. Sonda o, ölkədə demokratiyanın daha da möhkəmlənəcəyinə və ikitərəfli münasibətlərin inkişafına əminliyini ifadə edib. “Və əminəm ki, qarşıdan gələn seçkilərimizin nəticələrindən sonra Ermənistanda demokratiya və Ermənistanda xalqın gücü daha da güclənəcək və seçkilərin nəticələrindən sonra münasibətlərimiz də dinamik şəkildə inkişaf etməyə davam edəcək”. ”Əlbəttə ki, mən artıq gündəliyimizin çox sıx olduğunu demişəm, amma hələ də istifadə olunmamış bir çox imkanlar var və əminəm ki, bu imkanlar dialoqumuz nəticəsində reallaşacaq”, - deyə Baş nazir yekunlaşdırıb. Paşinyanın Rusiyaya səfəri - Putinlə görüşü iki hədəfə hesablanmışdı. Birincisi, seçki öncəsi Rusiya ilə münasibətləri normallaşdırmaq, ən azı daxili auditoriyaya, xüsusilə Moskvaya “bel bağlayan” müxalifətə Putinlə “problemin olmadığı” mesajını vermək. Bunu açıqlamasında politoloq Asif Nərijmanlı deyib. Politoloq ikinci hədəf kimi Rusiyanın seçki prosesinə müdaxiləsini neytrallaşdırmaq olduğunu bildirib: “Seçki öncəsi gərginliyin kəskinləşməsi fonunda Putinlə “təmasların davam etdiyi” pozu Paşinyan hakimiyyətinə lazımlıdır. Çünki əsas opponentləri Moskva ilə dərin əlaqələrə malikdir: Putinlə şəxsi dostluğu olan Robert Koçaryan onun dəstəyi ilə hakimiyyət dəyişikliyinə ümid edir; yeni “siyasi qüvvə” hesab olunan rusiyalı miyarder Samvel Karapetyanın İrəvanda “Kreml missiyası”nı icra etdiyi sirr deyil, Paşinyanın kilsə ilə mübarizəsində də Rusiya Qaregin dəstəsinin yanındadır. Ermənistan hakimiyyəti seçkidə mümkün riskləri müxalifətin bağlı olduğu ölkədə həll etmək istəyir. Hərçənd, görüşdə Putinin səsləndirdiyi fikirlər fonunda buna nə qədər nail olduğunu demək çətindir. Putin “Ermənistanda fəaliyyət göstərən bütün siyasi qüvvələrin seçkidə iştirak etməsini”, həmçinin, “Rusiyada yaşayan 2 milyon erməninin də səsvermə hüququnun təmin edilməsini” istəməklə Rusiyapərəst qüvvələrin yanında olduğunun mesajını verib. Bununla yanaşı, “Ermənistanın Avrasiya İqtisadi İttifaqında olduğu halda Avropa İttifaqına üzlüklə bağlı müzakirələri” qəbuledilməz adlandırmaqla İrəvanın siyasi oriyentasiyasından narazılığını dilə gətirib”.

Görüşdəki polemika, xüsusilə Putinin Ermənistandakı seçkilər dedikləri Rusiyanın ən azı mövqelərini gücləndirmək fürsəti kimi gördüyünü deməyə əsas verir. Bunu İrəvanda da anlayırlar, Ermənistan hakimiyyətinin Avropa İttifaqından dəstək istəməsi, Brüsselin Moldova ssenarisinə əsasən İrəvana “xüsusi missiya” göndərmək planı da bundan qaynaqlanır. Yəqin ki, 7 iyun seçkilərində Ermənistan Rusiya və Qərb qarşıdurmasının əsas mərkəzinə çevriləcək.

**V.VƏLİLİ**

RAKURS



Elçin Bayramlı

## 3 uşaqlı ailələrə uşaqpulu veriləcək?

Azərbaycanda çoxuşaqlı ailə statusu və müavinət üçün uşaq sayı (6 və daha çox uşaq) yüksəkdir. Ölkədə doğum səviyyəsi kəskin azalıb və hazırda hər ana başına 1.6 uşaq düşür. Bu artımı stimullaşdırmaq üçün bir çox deputatlar və ictimai xadimlər tərəfindən çoxuşaqlılıq meyarının 3 uşağa endirilməsi təklif edilir.

Son dövrlər bütün dünyada belə bir tendensiya gedir: doğumun azalması, əhalinin artımının zəifləməsi. Ortalama fertillik əmsalı bütün ölkələrdə aşağı düşüb. Məlum olduğu kimi, minimal norma 2.1-dir. Yəni, 2.1-dən aşağı əhalinin azalması deməkdir, əhalinin qocalması deməkdir və tədricən, onillər ərzində bir cəmiyyətin azalaraq yoxa çıxmasına gətirib çıxarır. Avropa ölkələrində təxminən bu rəqəmlərdir: 1 ilə 1.8 arasında. Bu isə orda ciddi demoqrafik problemlərə gətirib çıxarır. Azərbaycan üçün 1,6 çox aşağı göstəricidir. Bizdə minimum 2.5 - 3 olmalıdır; əvvəllər belə idi. Dünya ölkələrində bununla bağlı bir çox sosial dəstək proqramları var, müxtəlif ölkələrdə fərqli formalarda həyata keçirilir. Bu uşaqpulu formasında olur, çoxuşaqlılığa görə əlavə müavinətlər, müxtəlif sosial güzəştlər formasında olur və s.

Bizdə də bəziləri var- uşaq doğumuna görə 500 manat müavinət, 5 və daha çox uşağa görə uşaqpulu (105 manat), bir də həssas qruplara görə sosial müavinətlər var. Hazırda bizdə olan çoxuşaqlılıq meyarı çox onillər əvvəl müəyyənləşdirilib- 6 uşaqdan başlayır. İndiki dövrdə bu adekvat deyil. Çünki, bu gün artıq 3 uşaqlı ailə faktiki olaraq çoxuşaqlıdır. Biz artıq 1 uşaqlı ailə modelinə keçmişik, yaxşı halda 2 uşaq olur ailələrdə, nadir hallarda isə 3, 4 və sairə.

Deməli, çoxuşaqlılıq meyarı 6-dan 3-ə salınmalıdır. Bütün uşaqlara uşaqpulu vermək mümkün olmursa, o halda, heç olmasa, 3 uşaqlı ailələrə bunu tətbiq etmək lazımdır. 3 uşaqlı ailələr çoxuşaqlı elan olunmalı və onlara həmin güzəştlər, yardımlar tətbiq olunmalıdır. Bu, ən azı ailələrdə 3 uşağı stimullaşdıra bilər.

Bir millətin artımı üçün ailələrdə orta uşaq sayı 3 olmalıdır. 1-2 uşaqlı ailələr azalmaya xidmət edir. Bu, son nəticədə əhalinin qocalmasına gətirib çıxarır, əhalinin strukturunda uşaqların və gənclərin çəkisini kəskin azaldır. Bizdə də son statistika bu təhlükəni göstərir. Bizim bununla bağlı ciddi maliyyə imkanlarımız var, hər cür potensial var. Bunu eləyə bilərik, necə ki əksər ölkələr edir.

Təbliğ etmək lazımdır, çalışmaq lazımdır ki, ailələrdə 3 uşaq olsun. Burda həm sosial dəstək paketlərinin rolu var, həm də mənəvi-psixoloji təbliğatın. Son dövrlərdəki bu azalma təkcə sosial şərtlərlə bağlı deyil, daha çox faizi mənəvi deqradasiya ilə bağlıdır. Çünki, biz görürük ki, maddi-sosial baxımdan vəziyyəti yüksək olan ailələr belə, bir uşaqla kifayətlənir, maksimum iki uşaqla. Bu o deməkdir ki, burda maddi problem deyil, mənəvi problemdir.

İnsanların həyat tərzi, həyata baxışları, psixologiyaları dəyişib və özləri üçün yaşamağa çalışırlar. Açıq şəkildə bəzi gənclər deyirlər ki, biz nə qədər maddi imkanımız olsa da, vaxtımızı, gəlirimizi özümüzə, əyləncəmizə sərf etmək istəyirik, uşaqlara yox. Bax bu çox təhlükəli tendensiyadır. Bu qeyri-təbii, qeyri-mənəvi, bioloji qanunlara da zidd olan qorxunc bir qlobal təbliğatın təsiridir. Öz milli mənəvi dəyərlərimizi, ailə dəyərlərimizi kənara atmağın nəticəsidir. Ona görə bu istiqamətdə də iş aparılmalıdır. Milli mənəvi dəyərlərimizin, ailə dəyərlərimizin əleyhinə aparılan təbliğatlar tam dayandırılmalıdır və əksinə öz dəyərlərimiz təbliğ edilməlidir.

Əlavə olaraq, gənclərin bununla bağlı sosial dəstəyə də ehtiyacı var, onlara əlavə güzəştlər də lazımdır. Məsələn, 3 uşaqlı ailələrdə valideynlərin iş məsələsində dəstək verilməlidir, normal işləri olmalıdır. Əlavə müavinət olmalıdır. Ev problemi varsa, həll olunmalıdır, güzəştli şərtlərlə, uzunmüddətli mənzil alınmasına, sosial mənzilin alınmasına dəstək verilməlidir. Onların uşaqlarının təhsilində və sair məsələlərdə güzəştlər tətbiq olunmalıdır. Əgər bunlar olunsa, mütləq şəkildə bu tendensiyanı əksinə çevirə bilərik. Buna həm maliyyə imkanlarımız var, həm də bizim güclü mənəvi bazamız var. Min illərdir belə olub, sadəcə son dövrlərdə bu tendensiya qlobal təsirlər nəticəsində yayılıb. Bunun qarşısını almaq üçün 2 istiqamətdə iş aparmaq lazımdır: sosial dəstək paketləri və mənəvi-psixoloji reabilitasiya. Bunlar həyata keçirilsə, hesab edirəm ki, uzağı 5 il ərzində biz balansı bərpa eləyə bilərik, yəni normal vəziyyətə qayıda bilərik.

# Təxribat planı necə ifşa olundu?

*Dövlətə xəyanət etmək, xalqın milli maraqlarına zərbə vurmaq insanlıq hissini itirmək, dəyərlər sistemindən məhrum olmaq deməkdir. Yazıqlar olsun ki, beləkləri var. Onlar bilə-bilə xalqına və dövlətinə qarşı xəyanət yolu tuturlar. Yəni xainlik və satqınlıq etməkdən də çəkinməyirlər. Səbəbini araşdıranda bəlli olur ki, belə üzüdönüklər xarici maraqlı dairələrin təsiri altında olanlardır. Digər qismi isə, daha çox varlanmaq, böyük həcmdə pullar əldə etmək iştahasına düşənlərdir.*



Prezident Administrasiyasının keçmiş rəhbəri, AMEA-nın sabiq prezidenti Ramiz Mehdiyev ilə bağlı cinayət işinə nəzər yetirdikdə məlum olur ki, onun dəstəsində hər iki kateqoriyadan olan insanlar var. Yəni dövlət çevrilişi cəhdini planlaşdırmaqla xalqın qurub, yaratdıqlarını dağıtmağa çalışanlarla yanaşı pul, var dövlət qazanmaq istəyənlər də mövcuddur. Təbii ki, hər iki kateqoriyadan olan məxluqlar mühakimə olunaraq layiqli cəzaların alacaqlar. İlk növbədə isə onların hər biri ictimai qınağa, ittihama məruz qalırlar. Çünki dövlətin və xalqın maraqlarından üstün heç nə ola bilməz. Varsax deməli, onlar yuxarıda qeyd etdiyimiz kimi, insanlıq hissindən, milli təəssübkeşlikdən və əxlaqi dəyərlərdən məhrumdurlar. Onlara azərbaycanlı demək də şübhələr yaradır. Necə ola bilər ki, Qarabağ kimi düyünü 44 günə həll edib, adını dünya hərb tarixinə qızıl hərflə yazan Azərbaycan xalqını fəlakətə sürükləməyə, dövləti çalxalanmalara məruz qoymaq olar? Azərbaycanlı olan kəs həssas bir məqamda, hansı ki, müharibənin qaçılmaz olduğu bir vaxtda ermənilərin maraqlarına uyğun olaraq təxribatlar törətməyə cəhdlər göstərə bilər?

## Saxta vətənpərvərlik

Fakt ondan ibarətdir ki, 2020-ci ilin iyul ayının 14-dən 15-nə keçən gecə Ramiz Mehdiyev, Əli Kərimli, Abbas Abbasov və digərləri Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın apardığı təcavüzkar müharibəyə qarşı və orduya dəstək üçün insanların Bakı şəhərində yürüş etdikləri zaman geniş təxribat planı hazırlayıblar. Əli Kərimlinin birbaşa tapşırığı əsasında Fuad Qəhrəmanlı və digər AXCP üzvləri kiçik qruplar təşkil etməklə yürüş iştirakçılarına qoşularaq vətənpərvərlik şüarlarını təxribat xarakterli çağırışlarla əvəz edərək xaotik vəziyyət yaratmağı planlaşdırmışdılar. Əgər məkrli planları baş tutsa idi, sonradan təxribatın miqyasını genişləndirərək Azərbaycan Respublikası Milli Məclisinin və "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin inzibati binalarını ələ keçirməli idilər ki, bundan sonra kütləvi informasiya vasitələri ilə hakimiyyətin ələ keçirildiyini bəyan edəcəkdilər. Bununla bağlı Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədr müavini Fuad Qəhrəmanlı Dövlət Təhlükəsizliyi Xidmətində dindirilərkən açıq etiraflar edib. Bildirib ki, Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın apardığı təcavüzkar müharibəyə qarşı və orduya dəstək üçün Azərbaycan vətəndaşları 2020-ci ilin iyul ayının 14-dən 15-nə keçən gecə Bakı şəhərində yürüş etdikləri zamanı Əli Kərimli ona və digərlərinə xüsusi tapşırıqlar verib. Tapşırıqlara əsasən partiyanı təmsil edən şəxslərlə birlikdə kiçik qruplar təşkil etməklə yürüş iştirakçılarına qoşulmaq, daha sonra vətənpərvərlik şüarlarını təxribat xarakterli çağırışlarla əvəz edərək xaotik vəziyyət yaratmaq, bu vəziyyətdən yararlanıb kütləni idarə etməklə, Azərbaycan Respublikası Milli Məclisinin və "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin inzibati binalarını ələ keçirmək, o cümlədən kütləvi informasiya vasitələri ilə hakimiyyətin ələ keçirilməsinə cəhd edilməli idi.

## Onları ağır cəza gözləyir

Bütün bunlar onu təsdiq edir ki, Ramiz Mehdiyevin rəhbərlik etdiyi təxribatçı dəstə Rusiya xüsusi xidmət orqanlarından verilən tapşırıqları yerinə yetirmək üçün geniş təxribat planı hazırlamışlar. Əli Kərimli planın icrası üçün hər cür vasitə və üsullardan istifadə etmişdir. Hətta Əli Kərimli ağası rolunda çıxış edən Ramiz Mehdiyevin sifarişi əsasında Rusiya qarşısında öhdəliklərini də bəyan etmişdir. Bildirmişdir ki, hakimiyyətə gələcəyi təqdirdə Azərbaycanın mərhələli qaydada Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına tam üzv olacaq. Bu hal birbaşa Azərbaycan xalqının və dövlətinin maraqlarına qarşı xəyanətdir. Cinayət işinin materiallarına görə, cinayətkar dəstənin fəaliyyəti geniş olub. Ramiz Mehdiyev 2025-ci ilin avqust-sentyabr aylarında dövlət hakimiyyəti əleyhinə gizli plan və fəaliyyət istiqamətlərini özündə ehtiva edən "Dövlət idarəetmə sisteminin yenidən qurulması haqqında təkliflər" başlığı altında müvafiq xarici dildə hazırladığı yazılı materialı köməkçisi Əmirov Eldar Qurban oğlu və digərləri vasitəsilə həmin sənəddə nəzərdə tutulan məsələlərin birgə razılaşdırılması məqsədilə 27 sentyabr 2025-ci il tarixində Əli Kərimliyə təqdim etmiş, 2025-ci ilin oktyabr ayının 3-də sözügedən yazının yekun redaktə olunmuş nüsxəsini qabaqcadan şəxsən əlaqə saxladığı xarici dövlətin xüsusi xidmət orqanlarının rəhbər vəzifəli şəxslərinə faktiki sahibi olduğu "Şərq-Qərb" ASC-nin əməkdaşları vasitəsilə göndərmiş, qeyd olunan göndəriş texniki olaraq fiksə edilib.

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanın dağıdıcı müxalifəti güclü və qüdrətli Azərbaycan dövlətinin sütunlarını zədələmək üçün istənilən qüvvə ilə, eləcə də Ermənistandakı əlləri azərbaycanlı uşaqların qanına batmış Koçaryanla, Sarkisyanla, Ohanyanla və digər revanşist qüvvələrlə əməkdaşlıq etməkdən çəkinməyiblər. Əsaslı olaraq hüququn aliliyi qorunaraq cinayətkar dəstə ifşa olundu və təşkilatçılar həbs edildilər. Həbslərdən sonra xarici maraqlı qüvvələrin, xüsusilə də Fransa, Almaniya kimi dövlətlərin hegemonluq etdiyi Avropa İttifaqının hay-küy qaldırması sadəcə izi azdırmaq cəhdindən başqa bir şey deyil. Şəxs, o cümlədən dağıdıcı müxalif partiya sədri və funksionerləri dövlətə qarşı cinayət törədibsə, onlar mütləq məsuliyyətə cəlb olunmalıdır. Qardaş Türkiyədə, aparıcı partiyanın funksioneri, İstanbul bələdiyyə başqanı Əkrəm İmamoğlu cinayət törətdiyinə görə, həbs olundu və bu günlər məhkəməsi keçiriləcək. Gürcüstanın 8 müxalifət partiyasının liderləri məhkəmə qarşısına çıxarılıb. Onlara qarşı cinayət işi 2025-ci il 6 noyabrda açılıb. Təqsirləndirilən şəxslərin bəziləri təxribatda, digərləri isə xarici dövlətin düşmənçilik fəaliyyətinə kömək etməkdə və hökuməti devirməyə çağırış etməkdə ittiham olunurlar. Günahkar olduqları sübut olunarsa, onları 15 ilə qədər həbs cəzası gözləyir. Ölkənin keçmiş prezidenti, indiki hakimiyyətə qatı müxalifətçi Mixeil Saakaşvili məhkəmə qarşısına çıxarılıb. Məhkəmə zalında həmçinin Qvaramiya, Vaşadze, Zurab Caparidze və Badri Caparidze də iştirak edib. Xoştariya və Xazaradze dinləmədə iştirak etməyiblər, Melia isə keçmiş cinayətlərinə görə, həbsxanada cəzasını çəkir. Müxalifətçilər Badri Caparidze və Mamuka Xazaradze hər biri 1.000.000 lari girov, Zurab Caparidze və Giorgi Vaşadze isə hər biri 30.000 lari girov qarşılığında məhkəməyə qədər azadlıqda qalıblar.

**İLHAM ƏLİYEV**

TƏHLİL



**Mətanət Məmmədova**

# Milli-mədəni inqilab

***Ötən ay ölkəmizdə bəzi televiziya verilişlərinin bağlanmasını milli-mədəni inqilabın nəticəsi kimi dəyərləndirmək olar. Bu verilişlərə çağırılan qonaqlar, onlara verilən suallar, alınan cavablar, müzakirə edilən məsələlər, xüsusi ssenari əsasında hazırlanan, lakin canlı yayımlanan proqramlar sayəsində milli dəyərlərin televiziya studyalarında məhvə doğru sürüklənməsi, ailə dəyərlərinə ağır zərbələr endirilməsi, ailə üzvlərinin təqdim olunan görüntülərə birlikdə qətiyyən baxa bilməməsi bu inqilabın baş verməsi üçün əsas məqamlar oldu.***

Təbii ki, bu verilişləri bəyənənlər, saatlarla televizor qarşısında əyləşib baxanlar, hətta bəzi verilişlərin aparıcılarını özlərinin "qəhrəmanı" hesab edənlər də var idi: nəyə görə? Bunu anlamaq çətin olsa da, təəssüf ki, bu, acı həqiqət idi.

Lakin bu verilişlərə hər zaman öz mənfi münasibətini bildirən ictimaiyyət nümayəndələri-ziyalılar, deputatlar, sosioloqlar, mətbuat nümayəndələri çoxluq təşkil edirdi. Və hər dəfə müsahibələrində, çıxışlarında, açıqlmalarında televiziyalarda nə baş verdiyinə münasibət bildirirdilər. Deməli, bu xalqın milli dəyərlərini başının tacı bilən, onları göz bəbəyi kimi qoruyan insanlar həmin verilişlərə baxıb gülənlərdən, ağlayanlardan, ürək döyüntüsü keçirənlərdən, öz problemini götürüb ucqar kəndlərdən paytaxta gələnlərdən, həyat yoldaşını, qayınanasını "filan verilişə gedib sizi biabır edərəm ha!",-deyə hədələyənlərdən, ailəsində baş verən böyüklü-kiçikli problemlərin ictimaiyyətin gözü qarşısında müzakirəsindən utanmayanlardan dəfələrlə çox idi. Məhz elə buna görə də bu inqilab üçün hər gün bir qədər də zəmin yaranırdı.

"Xalqın gözü tərəzidir" atalar misalı əbəs yerə yaranmayıb. Xalq hər şeyi görür, qiymətini verir və nəticəsini tələb edir. Bəzi televiziyalardakı verilişlərin də artıq həddini aşması, Azərbaycan cəmiyyətinə uyğun olmayan söhbətlərin bu verilişlərdə son vaxtlar daha da çoxalması insanları, xüsusilə ziyalı təbəqəni buna son qoymağa vadar etdi. Məsələ elə bir həddə gəlib çatmışdı ki, artıq insanlar bu televiziya kanallarına ümumiyyətlə, baxmırdılar. Ailələr uşaqları ilə televizor qarşısında əyləşib bu verilişlərə baxa bilmirdilər. Çünki gözlənilmədən, bizim ənənələrə, ailə mədəniyyətinə uyğun olmayan elə söhbətlər edilirdi ki, insan uşaqların verdiyi sullar qarşısında heç bir cavab tapa bilmirdi.

Bəzi aparıcılar xalqı aldatdıqlarını, onların anlamadığını düşünürdülər. Lakin məlum oldu ki, onların verilişi baxış sayını artıqmaq məqsədilə əvvəldən hazırlanmış ssenari əsasında, lakin canlı şəkildə təqdim olunurdu. Studuyada elə hadisələr baş veririrdi ki, tamaşaçı olaraq xəcalət hissi keçirirdik. Sən demə bütün bunlar düşünülmüş, əvvəlcədən hazırlanıbmış...

Dəvət olunan qonaqlar, onların geyim tərzi, özlərini milyonlarla insanın qarşısında aparmaq tərzi, istedad küləyi dəyməyən, fonoqram ilə oxuyaraq özünü istedadlı sanan, məşhurlaşmaq üçün insanların musiqi zövqünü korlayan bəzi müğənnilər, ağızlarından çıxanı qulağı duymayan insanlar bu inqilabın qığılcımlarını hər gün artırır, onun bir gün alovlanmasına əsaslı zəmin yaradırdılar.

Beləliklə, həmin verilişlərin dayanması üçün qərar verildi. Hətta adları xüsusi siyahıda sıralanan müğənnilərin televiziya kanallarına çağırılmasına da qadağa qoyuldu. Bu, həqiqətən də milli-mədəni inqilab, xalqın mənəvi dəyərlərinə zərbə vuranlar üçün bir təcrid idi. Nəticə xalqın əksər hissəsinin istədiyi çərçivədə oldu: milli-mənəvi ənənələrə, çoxəsrlik ailə dəyərlərimizə zərbə vuranlar, Azərbaycan cəmiyyətinə münasib olmayan davranış nümayişinə görə bir neçə verilişə qadağa qoyuldu. Və çox təqdiredici haldır ki, səsini, istedadını deyil, şəkilləndirdiyi bədənini, paltarla örtmək istəmədiyi bədən hissələrini və yaxud da geyindiyi paltarın, ayaqqabının, zinət əşyalarının qiymətini studuyalarda hesablayıb təqdim edən, şəxsi həyatını insanlara dəxli olmayan dərəcədə açıqlayan müğənnilər və bütün bu bayağılıqları qızışdıran, hətta çox vaxt həddini aşan aparıcılar televiziya məkanına "əlvida" deməli oldular.

Təbii ki, bu qərarın verilməsində xalqın maraqlarını üstün tutan quruma dərin təşəkkür edirik. Bu qərar xalqın keçmişinə dəyər, bu gününə hörmət, gələcəyinin xilasıdır. Gənc nəslin milli-mənəvi tərbiyəsində böyük rola malik bir qərardır. Çünki dünənimizə dəyər verməsək, bugünkü cəmiyyətdə yetişdirdiyimiz övladlarımızı dünənki dəyərlər əsasında tərbiyə etməsək, onlar gələcəyə əliboş gedərlər. Odur ki, bu qərarı təqdir edir, eyni zamanda onu da bildirmək istəyirik ki, bu xalqı heç kimlə dəyişik salmaq olmaz: bizim ənənələrimiz, milli mənsubiyyətimiz, dəyərlərimiz hər bir müasir dövrdə özünəməxsusluğunu qorumaqla inkişaf edib. Başqa cür ola bilməz. Çünki biz azərbaycanlıyıq.

***Elektron siqaretlər, yəni "vape" və ya ENDS/ENNDS cihazları, maye (əsasən nikotin, ləzzət vericilər və kimyəvi maddələr) buxarlaşdıraraq istifadəçiyə daxil olan aerosol yaradır. Bu cihazlar tüstü çıxarmır, amma buxar vasitəsilə tənəffüs sisteminə müxtəlif kimyəvi maddələr daxil olur. SİA mövzu ilə bağlı araşdırma edib.***



### Dünya miqyasında vəziyyət

**Global istifadə artıb**

Dünyada 100 milyondan çox insan elektron siqaret istifadə edir, onların təxminən 15 milyonu yeniyetmələrdir.p Bu, xüsusilə gənclərin nikotinə asılılığını artırır və tütün nəzarət sahəsində yeni çağırışlar yaradır.

### Qaydalar müxtəlifdir

Təşkilatı yeniyetmələrin vapingə daha çox meylli olduğunu və bu trendin sağlamlıq siyasəti üçün ciddi narahatlıq yaratdığını bildirir.

### Qadağalar və tənzimləmələr (dünya ilə müqayisə)

**Qlobal yanaşma fərqlidir:**

Bəzi ölkələr tam qadağa tətbiq edib —

# Sağlamlıq ön planda: elektron siqaretlər niyə qadağan edildi?



Təxminən 68 ölkə elektron siqaretləri müəyyən qaydalarla tənzimləyir — bəzi ölkələr sadəcə satış və reklamı məhdudlaşdırır, digərləri qəti qadağalar tətbiq edir.

### Bəzi ölkələr tam qadağa tətbiq edib

Məsələn, Hindistan ümumilikdə satış və istehsalı qadağan edib. Digər ölkələrdə isə yalnız müəyyən növlər, ləzzətlər və ya istifadənin qaydaları məhdudlaşdırılıb.

### Avropada da nəzarətlər güclənir

Belçika və İsveçrə kimi ölkələr müəyyən növ vape məhsullarının satışını qadağan edir və gənclər arasında istifadənin qarşısını almağa çalışırlar.

### Elektron siqaretlərin sağlamlıq təsirləri

Nikotinə asılılıq və beyin inkişafı: Nikotin çox güclü asılılıq yaradır və yeniyetmələr üçün beyin inkişafına mənfi təsir edə bilər. Tənəffüs problemləri: Vape istifadəçilərində bronxit, astma və digər tənəffüs xəstəlikləri artmaqdadır. Kimyəvi toksinlər: Vape mayeləri istidikdə zərərli kimyəvi maddələr, ağır metallar və nitrozlar buraxır ki, bunlar da ürək-damar və ağciyər xəstəliklərinə səbəb ola bilər.

Uzunmüddətli təsir hələ tam məlum deyil: Bu məhsullar nisbətən yenidir, buna görə uzunmüddətli sağlamlıq təsirləri barədə hələ də araşdırmalar davam edir. Uşaqlar üçün ciddi risk: Dünya Səhiyyə

yəni vape məhsullarının satışı və istifadəsi qanunla qadağandır. Bir çox ölkədə isə yalnız məhdudiyyətlər var — minimum yaş, reklam qadağaları, ictimai yerlərdə istifadə yasaqları və s.

Az sayda ölkədə vape məhsulları müalicə və siqareti tərgitmə vasitəsi kimi nəzərdən keçirilir (yəni zərərli olduqları halda "az zərərli alternativ" kimi də istifadə olunur), lakin bu yanaşma da mübahisəlidir. Məsələn bəzi Avropa ölkələri disposable (tək istifadəlik) vapes qadağan edib. ABŞ və başqa regionlarda reklam və ləzzət qadağaları geniş tətbiq olunur, lakin tam qadağa deyil.

### Niyə qadağa var?

Ən əsas səbəblər bunlardır:

-Gənclər arasında nikotin istifadə səviyyəsinin artması

-Sağlamlıq problemlərinin yüksəlməsi

-Uzunmüddətli risklərin tam bilinməməsi

-Qeyri-rəsmi bazar və təhlükəsiz olmayan məhsulların yayılması

-Ailələr və cəmiyyət üçün ictimai narahatlıq

Bu səbəblərlə bir çox ölkələr vape məhsullarına səviyyəli tənzimləmələr, bəzi hallarda isə tam qadağa tətbiq etməyi seçir.

### Azərbaycanda elektron siqaret qadağası

Azərbaycanda elektron siqaretlərin (vape) istifadəsi, satışı və dövriyyəsi 2026 cı il aprelin 1 dən etibarən tam qadağan edilib. Bu, "Tütün və tütün məmulatı haqqında" qanuna edilən dəyişikliyə əsasən qəbul olunub. Qanuna görə, nikotin tərkibli elektron siqaretlər artıq "tütün məmulatı" kateqoriyasına daxil edilir və onların idxalı, ixracı, istehsalı, saxlanılması, topdan və pərakəndə satışı və istifadəsi qanunla qadağan olunur.

Qadağaya uyğun olaraq, ictimai yerlərdə elektron siqaret istifadəsinə görə cərimələr də tətbiq olunur – məsələn, qadağan edilmiş yerlərdə vape istifadə edən şəxslər üçün müəyyən məbləğdə cərimələr nəzərdə tutulub.

### Niyə belə qadağa qəbul edildi?

Bu qərarın arxasında bir neçə əsas səbəb dayanır:

**Sağlamlıq və asılılıq riski**

Elektron siqaretlər sıx sıx gənclər arasında yayılırdı və nikotin asılılığını artırırdı. Bu isə, xüsusilə yeniyetmələr üçün ciddi sağlamlıq riskləri yaradır. Qadağa ümumi sağlamlığı qorumaq və gənc nəsildə nikotin istifadəsinin qarşısını almaq məqsədi daşıyır.

### Qeydiyyatsız bazar və nəzarət çatışmazlığı

Əvvəllər elektron siqaret satışı və istifadəsi çox vaxt qeyri rəsmi şəkildə olurdu və tənzimləmə çərçivəsi mövcud deyildi. Belə vəziyyətdə məhsulların keyfiyyəti və təhlükəsizliyi tam təmin olunmurdu, bu da riskləri artırırdı. Qadağa bu boşluqları aradan qaldırmaq üçündür.

### Cəmiyyət tərəfindən dəstək

İctimai müzakirələrdə bir çox valideyn və ekspert bu qərarı gənc nəsillərin nikotindən uzaq tutulması üçün vacib addım hesab edir.

### Qadağanın Azərbaycan üçün spesifik təsirləri

**Sağlamlıq üzərində təsiri**

Qadağa, əsas məqsəd olaraq, gənclər və ümumi əhali arasında nikotin istifadə səviyyəsinin aşağı salınmasına yönəlib. Belə qadağalar digər ölkələrdə də bu məqsədlə tətbiq olunur – çünki vaping məhsulları istifadəsi tənəffüs və asılılıq risklərini artırır.

### Kiçik biznes təsiri

Vape satışı ilə məşğul olmuş mağazalar və biznes sahibləri üçün bu dəyişiklik ciddi nəticələr doğurur: Stokda olan məhsulların istifadəsi artıq qanunsuzdur. İdxal, satış və dövriyyə dayandırıldığı üçün bu sahədə fəaliyyət göstərən kiçik bizneslər itkilərlə üzləşə bilər. Bu, bir çox sahibkar üçün çətinliklər yarada bilər, çünki onlar artıq rəsmi şəkildə fəaliyyət göstərə bilməyəcəklər.

### Qeyri - rəsmi bazarın genişlənməsi riski

Tam qadağa tətbiq olunduqda, dəyişikliklər təkcə qanuni bazarı sıxışdırır, amma tələb olduğu müddətcə bazarda qeyri rəsmi, nəzarətsiz satışların genişlənməsi riski də mövcuddur. Bu isə məhsulların daha təhlükəli şəkildə yayılmasına yol aça bilər.

### Hüquqi və inzibati cərimələr

Azərbaycanda artıq qadağan edilmiş vape məhsullarını istifadə edən şəxslər üçün qanunla müəyyən cərimələr də nəzərdə tutulur. Bu, qadağanın tətbiqini gücləndirmək məqsədi daşıyır.

### Dünya təcrübəsi ilə müqayisə

Azərbaycandakı qadağa yalnız bu ölkə ilə məhdudlaşmır. Ümumdünya Səhiyyə Təşkilatına görə, artıq dünya üzrə 40 dan çox ölkədə müxtəlif səviyyədə tənzimləmə və qadağalar mövcuddur. Bəzi ölkələr tam qadağa tətbiq edib, digərləri isə satışı məhdudlaşdıraraq reklamı qadağan edir və ya ləzzətli mayelərin satılmasına icazə vermir.

Azərbaycandakı qadağa modeli daha çox tam qadağa tətbiq edən ölkələrin sırasına daxildir – bu, nikotinin yayılmasını ciddi şəkildə məhdudlaşdırmaq üçün atılan addımdır. Azərbaycanda elektron siqaretlərin qadağan edilməsi qərarı — ictimai sağlamlıq, uşaqların və gənclərin nikotindən qorunması, qanuni bazarın təhlükəsizliyinin artırılması məqsədi ilə qəbul edilib. Eyni zamanda bu qərar kiçik biznes sahiblərinə təsir edə, qeyri rəsmi bazarın formalaşma riskini artıra və cərimə mexanizmlərini də aktivləşdirə bilər.

***Ayşən Vəli***

ARAŞDIRMA


ELAN

**Dövlət Sərhəd Xidməti tərəfindən İsrəfilov Toğrul Səməd oğlunun adına verilmiş 0013252 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.**

* * *

**Dövlət Sərhəd Xidməti tərəfindən Zeynalov Pünhan Füzuli oğlunun adına verilmiş 0006584 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.**

SON SƏHİFƏ
SƏS
3 aprel
2026-cı il

**"SƏS" qəzetinə abunə kampaniyası davam edir!**



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Mərkəzi Gömrük Hospitalında "Korrupsiyaya qarşı mübarizə" mövzusunda təlimlər keçirilib

*Dövlət Gömrük Komitəsinin "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"ndan irəli gələn vəzifələrin icrası ilə bağlı Tibbi Xidmət İdarəsinin rəhbər şəxsləri, şöbə rəisləri və əməkdaşları üçün "Korrupsiyaya qarşı mübarizə" mövzusunda təlimlər keçirilib.*





Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəis müavini Şahlar Mirqasım təlimdə çıxış edərək səhiyyə sahəsində şəffaflığın daha da artırılması, korrupsiyaya şərait yaradan halların qarşısının alınması və mübarizə tədbirlərinin davamlılığının təmin edilməsinin əhəmiyyətindən danışıb, həmçinin Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin əməkdaşlarının məlumatlandırılması və maarifləndirilməsi ilə bağlı həyata keçirilən davamlı təlim və tədbirlərin bu məqsədə xidmət etdiyini vurğulayıb.

Eyni zamanda Mərkəzi Gömrük Hospitalının rəis müavini Nahidə Mahmudova çıxış edərək səhiyyə sahəsində şəffaflığın və etik davranış prinsiplərinin qorunmasının tibbi xidmətin keyfiyyətinə və pasiyent məmnuniyyətinə birbaşa təsir etdiyini vurğulayıb. Rəis müavini Nahidə Mahmudova korrupsiyaya qarşı ardıcıl və prinsipial mübarizə müasir, etibarlı və insan yönümlü səhiyyə sisteminin formalaşmasının əsas şərtlərindən biri olmasını, Mərkəzi Gömrük Hospitalında korrupsiya ilə mübarizə istiqamətində mütəmadi olaraq əməkdaşlar arasında məlumatlandırıcı təlimlərin həyata keçirildiyini qeyd edib.

Təlimlərdə iş prosesində korrupsiyaya şərait yaradan halların qarşısının alınması sahəsində həyata keçirilən mütəmadi xarakterli tədbirlər və korrupsiya hüquqpozmalarına qarşı ciddi və səmərəli mübarizə üsulları barədə ətraflı məlumat verilib. Tədbir zamanı iştirakçılara korrupsiyanın anlayışı və mahiyyəti, onun sosial-hüquqi nəticələri, korrupsiyaya qarşı mübarizənin dövlət siyasətində prioritet istiqamətləri, korrupsiya hüquqpozmalarının növləri, həmin hüquqpozmalara görə tətbiq olunan məsuliyyət tədbirləri, mədəniyyət sahəsinə xas korrupsiya riskləri, eləcə də bu sahədə profilaktik və institusional mexanizmlər barədə, eləcə də korrupsiyaya yol verə biləcək hallar barədə geniş məlumat verilib.

Qeyd edək ki, il ərzində Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsində korrupsiyaya qarşı mübarizə tədbirləri davamlı olaraq həyata keçirilir, əməkdaşların maarifləndirilməsi və şəffaflığın artırılması istiqamətində fəaliyyətlər mütəmadi şəkildə davam etdiriləcək.

## ELAN

"Təmir - Tikinti AzNY " QSC-nin səhmdarlarının ümumi yığıncağı 23may 2026-cı il tarixində, saat 10.00-da Bakı şəhəri, Nizami rayonu, O.Vəliyev küçəsi 1 ünvanında keçiriləcəkdir.

Yığıncağın gündəliyində aşağıdakı məsələlər müzakirə ediləcəkdir:

**1. 2025-ci ilin maliyyə hesabatının təsdiqi.**
**2. Dividentlərin bölüşdürülməsinə dair.**
**3. Digər məsələlər.**

Bildiririk ki, COVİD-19 pandemiyası ilə əlaqədar Nazirlər Kabineti yanında Qərargahın qaydalarına dəyişiklik olarsa yığıncaq dəyişikliyə uyğun olaraq keçiriləcəkdir.

Səhmdarlar, ümumi yığıncağın gündəliyi üzrə materiallarla iş günləri saat 10.00-dan 18.00-dək QSC-nin idarə heyətinin sədri ilə əlaqə saxlamaqla tanış ola bilərlər.

**Əlaqə telefonu: 050-250-19-26**

Hörmətlə,
"Təmir-Tikinti AzNY" QSC-nin
İdarə heyətinin sədri:Quliyev Zəfər Səfər oğlu

# Tiktok yeniyetmələrdə hansı aqressiya yaradır?

***"TikTok sosial şəbəkəsi digər şəbəkələr kimi həm mənfi, həm də müsbət xüsusiyyətlərə malikdir. Bu, istifadəçinin öz xarakterindən, asılılıq səviyyəsindən, iradəsindən, həmçinin təsir altına düşmə mexanizmindən asılıdır".***



***PSİXOLOQ AÇIQLADI***

Bu sözləri SİA-ya açıqlamasında psixoloq Vüsalə Əmiraslanova deyib. Onun sözlərinə görə, bəzi insanlar TikTok-a yeni məkanları araşdırmaq, yeni insanlarla tanış olmaq və ya ümumiyyətlə son məlumatları əldə etmək platforması kimi baxırlar: "Lakin bəzi uşaqlar və yeniyetmələr onu daha təhlükəli davranışlar, riskli triklər və daha çox baxış sayı toplayan qorxulu videolar izləmək üçün istifadə edirlər.

Ümumiyyətlə, mən psixoloq olaraq düşünürəm ki, TikTok şəbəkəsi əsasən diqqətimizə təsir edir. Bu təsir həm böyüklərdə, həm də kiçiklərdə müşahidə olunur.

Qısa, 30–40 saniyəlik videolar insanlarda hövsələsizlik və səbirsizlik yaradır, diqqət çatışmazlığına səbəb ola bilir. İnsanlar artıq videolardan sonra məlumatı daha tez əldə etmək istəyir, səbirsiz davranırlar. Yəni bir insanı sona qədər dinləməkdə çətinlik çəkir, məlumatı tez əldə edib dərhal qərar verməyə çalışırlar. Bu isə qarşı tərəfdə qıcıq yaradır və ümumilikdə ünsiyyət problemlərini artırır.

Digər tərəfdən, bu platforma insanların zövq və həzzinə o qədər xidmət edir ki, demək olar ki, hər iki nəfərdən biri sakit bir mühit tapıb TikTok videolarına baxmaq istəyir. Bu, bir növ onları rahatlaşdırır. Böyüklər özlərini müəyyən qədər tənzimləyə bilsələr də, kiçiklər, xüsusilə yeniyetmələr bunu etməkdə çətinlik çəkirlər. Nəticədə dərsdən yayınma, ünsiyyətdən qaçma, aqressiya və sosial problemlər yarana bilir".

***Arzu Qurbanlı***

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**
**Tiraj: 2000**